# ÜMUMI HAZIRLIQ

<"xml encoding="UTF-8?>

## ÜMUMI HAZIRLIQ

Mə`sum imamların həyat tarixinin müxtəlif dövrlərində müşahidə olunur ki, insanlar imamın hüzurundan daha yaxşı istifadə etmək hazırlığına malik olmamışlar. Onlar müxtəlif dövrlərdə mə`sumun hüzur feyzindən bəhrələnməyin qədrini bilməmiş, onların hidayət çeşməsinin zülalarından layiqincə istifadə etməmişlər. Mütəal Allah Özünün sonuncu höccətini gizlətmişdir ki, hər vaxt onun qəbul edilməsi üçün ümumi hazırlıq olarsa zahir olsun, hamını ilahi mərifət sərçeşməsindən sirab etsin.

Buna əsasən, ümumi hazırlığın vücuda gəlməsi və`dəsi verilmiş xilaskarın zühuru üçün çox mühüm şərtlərdən biridir. Çünki yalnız ümumi hazırlıq əsasında o həzrətin islahatçı hərəkatı istənilən nəticəyə çata bilər.

Qur`ani-Kərimdə Bəni-İsraildən olan kiçik bir qrup-Calutun zülm və işgəncələrindən cana gələn insanlar barəsində qeyd olunur ki, onlar peyğəmbərlərindən istədilər ki, onlar üçün bir rəhbər tə`yin etsin, onun əmri və fərmanı arasında Calutla müharibəyə getsinlər.

أَلَمْ تَرَ إِلَى الْمَلإِ مِن بَنِي إِسْرَائِيلَ مِن بَعْدِ مُوسَى إِذْ قَالُواْ لِنَبِيٍّ لَّهُمُ ابْعَثْ لَنَا مَلِكًا نُّقَاتِلْ فِي سَبِيلِ اللّهِ قَالَ هَلْ عَسَيْتُمْ إِن كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ أَلاَّ تُقَاتِلُواْ قَالُواْ وَمَا لَنَا أَلاَّ نُقَاتِلَ فِي سَبِيلِ اللّهِ وَقَدْ أُخْرِجْنَا مِن دِيَارِنَا وَأَبْنَآئِنَا فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ تَوَلَّوْاْ إِلاَّ قَلِيلاً مِّنْهُمْ وَاللّهُ عَلِيمٌ بِالظَّالِمِينَ [1]

**«Məgər Bəni-İsraildən olan bir cəmiyyəti müşahidə etmədinmi ki, Musadan sonra öz peyğəmbərlərinə dedilər: «Bizim üçün bir rəhbər (sərkərdə) seç ki, (onun fərmanı altında) Allah yolunda cihad edək.» Peyğəmbərləri dedi: «Bəlkə sizə cihad hökmü veriləndə (imtina edərək) Allah yolunda cihad etməzsiniz?!» Dedilər: «Necə mümkün ola bilər ki, Allah yolunda cihad etməyək, halbuki öz ev-eşiklərimizdən və övladlarımızdan (ayrılıb) qovulmuşuq (bizim şəhərlərimiz düşmən vasitəsilə işğal edilmiş, övladlarımız əsir tutulmuşdur)?!»**

Amma onlara cihad hökmü verilən zaman az bir qrup istisna olmaqla, hamısı imtina etdilər. Allah zalımlara agahdır.»

Müharibə üçün bir nəfərin sərgərdə tə`yin edilməsi istəyi onlarda bir növ hazırlıq nişanəsidir, baxmayaraq ki, onların arasında çoxları yol əsnasında süstləşdilər və çox az bir qism mübarizəni axıra çatdırdılar. Deməli, zühur işi o zaman həyata keçəcəkdir ki, hamı cani-dildən cəmiyyətdə ədalət və əmin-amanlığın bərqərar olmasını istəsin, əxlaqi və ruhi cəhətdən təhlükəsizliyi tə`min olunsun, mə`nəvi cəhətdən çiçəklənib inkişaf etmək istəsinlər. İnsanlar ədalətsizlikdən, ayrı-seçkilikdən bezdikləri, zəif xalq gütlələrinin hüquqlarının qüdrət sahibləri və sərvətlər tərəfindən tapdalandığını maddi imkanların bir ovuc insanın əlində təmərküzləşdiyini, ümumixalq fərdlərinin çoxunun gündəlik çörəyə möhtac olduqlarını, başqa bir qrupun isə özlərinə göydələn saraylar tikdiyini, öz yığıncaqlarında həddindən artıq yemək və pul xərclədiyini gördükdə, ədalətsevərlik hisləri özünün son zirvəsinə çatacaqdır.

Əxlaqi pozğunluqların müxtəlif növlərdə rəvac verildiyini, əxlaqa və insaniyyətə zidd olan işlərin yerinə yetirilməsində bir-biri ilə yarışdığını, özlərinin çirkin əməlləri ilə iftixar etdiyini, yaxud insani və ilahi prinsiplərdən həddindən artıq uzaq düşdüklərini, iffətə zidd olan əməlləri «qanun» halına salıb nəticədə ailənin müqəddəs və möhkəm sütunlarını süstləşdirib başsız övladları cəmiyyətə tökdüyünü gördüyü zaman əxlaqi sağlamlığı, təhlükəsizliyi bəşəriyyətə hədiyyə edən bir rəhbərin zühuruna olan eşq həddindən artıq çoxalacaqdır. İnsanlar bütün maddi ləzzətləri sınaqdan keçirib, lakin öz həyat və məişətlərinə razı olmadıqları, mə`nəviyyatdan bəhrələnən bir dünya ardınca olduqları zaman İmam Zaman (ə)-ın lütf və mərhəmət çeşməsindən sirab olmaq üçün teşnəlikləri qat-qat artacaqdır. Aydındır ki, İmamın hüzuruna çatmaq şövqü o zaman özünün ən yüksək həddinə çatacaqdır ki, bəşəriyyət müxtəlif bəşər dövlət quruluşlarını və sistemlərini gördükdən sonra anlasın ki, aləmə fəsaddan, puçluqdan nicat verən yeganə şəxs- Allahın yer üzündəki canişini Həzrəti Məhdidir, pak həyatın yeganə proqramlarını da insanlara ərməğan gətirən də yalnız ilahi qanunlardır. Buna əsasən, bütün vücudları ilə imama olan ehtiyacı dərk edəcək, bu dərkin ardınca da zühurun zəminələrini yaratmaq üçün tam ciddiyyətlə sə`y göstərəcək və mövcud maneələri aradan qaldırmaq əzminə gələcəklər. Bu da yalnız fərəcin və qurtuluşun yarandığı bir zamandır.

Peyğəmbəri Əkrəm (s) zühurdan əvvəlki və axirəz-zaman dövrünün vəsfində belə buyurmuşdur: «Bir zaman gələr ki, mö`min insanın heç bir pənahgahı olmaz ki, zülmün və puçluğun şərindən ona pənah aparsın. (Belə bir zamanda) Allah Taala mənim xanədanımdan olan bir şəxsi seçər.»[2]

[1] Bəqər surəsi 246

[2] Əqdüd-dürər, səh 73